# ELEGİYA

## Bir matəm mərasimindəki çıxışlara yamaq və ya virtual göndərmə

*Cəllad, sənin yandırdığın kitablar...*
**Səməd Vurğun**

Əgər mənə söz versələr nə deyərdim görəsən. Hərçənd burada məni adam yerinə qoyub, bu yüksək səviyyəli möhtərəmlərin cərgəsinə qatıb kimsə söz verməz. Amma birdən versəydilər. Versəydilər ya kürsüyə çıxıb iki damla göz yaşı ilə kürsüdəki saxta izləri yuyar, susar və kürsüdən ayrılardım, ya da deyərdim:

-Yazı ona görə meydana çıxdı, kitablar ona görə yazılası oldu ki, insanlar yaddaşlardakı fikirləri, mətnləri quruyub saxlamağa ehtiyac duydular. Fikir sahibi ilə birgə ölüb getməyə qoymaq istəmədilər. Beləliklə, yazdılar. Mirzə Cəlil demiş, kitab bağladılar ki, bu gözəl əhvalatlar unudulub getməsin. Amma...

Siz heç yandırılan kitabları görmüsünüzmü?! Və ya kitablar yandırılanda görmüsünüzmü! İçində yazılar olan kağızmı yanırdı, yoxsa yanan fikirlər idimi? Bəşəriyyətin fikir xəzinəsi idimi? Tarixdə çox "Fatehlərin" kitablar yan-dırdığı haqda çox yazırlar. Çox uzağa getməsək, elə bolşeviklərin gəldiyi gündən komissarın, "Ellər atası"nın -XX əsrin ən böyük başkəsəninin qorxusundan yandırılan kitablardan xəbəriniz vardımı!. Ziya Bünyadov xatirələrində deyirdi ki, nənəm təndiri qaladı. Kitab dolu kisələri sürüyüb gətirdi təndirin yanına kitabları bir-bir çıxarıb atdı yanan oda. Kitablar yandıqca nənəmin gözündən yaşlar axıb yanan kitabların alovuna damcıldayır və fış-fış eləyirdi. Bu anda ağlayan nənənin ürəyindən nələr keçirdi. Bu ürəkdən keçənləri yaza bilən bir yazıçı varmı, çıxsın ortaya bu gün əsərlərində ürəkbulandıran səhnələri təsvir etdikləri kimi bunu da təsvir etsin. Mən bir yazıçı deyiləm, iddia da etmirəm. Amma onu deyirəm ki, bəlkə də o göz yaşları cəhənnəm atəşləri qarşısında duran biz günahkar bəndələrin yanacağı bədəninə bir sərinlik gətirər, onu xilas edib o oddan qurtaran bir vasitə ola bilər. Kaş ki o qədər də olsa, ağlaya bilsəydik.

Siz heç özünüz kitab yandırdınızmı və ya yandırmağa məcbur oldunuzmu! Onda bu nənənin yaşadığı hissləri bəlkə anlaya, duya bilərdiniz.

Xəlil Rza deyirdi: "Davam edir 37". Əslində o əzəldən əbədə qədər cəlladlığın simvolu kimi heç zaman dayanmayacaq. Hər zaman və hər yerdə davam edəcək. Necə ki, Y.Səmədoğlu demiş, bu ikiayaqlı canavarlar ki var...

Hamam hamam içində saman xəlbir içində... Qeyri-müəyyən bir məkanda, naməüyyən bir zamanda yekə bir məktəbin çöl qapısının önündə məktəbin fəhlələri inşaat arabalarında, ki bu arabalarda hər nə desən daşınır, indi də kitablar daşınır. Çör-çöp boşaldılan kimi bir küncə boşaldılır. Bir fəhlə də o kitabları götürüb fırıldadır necə gəldi bir maşının kuzasına. Bir iki tələbə ürək ağrısı ilə əvvəl bu səhnəyə, sora kitabların "kimliyinə" baxmaq istəyir. "Bəlkə birikisini bu qətliamdan qurtaraq" deyə. Amma üzü kömür kimi qaralmış bu fəhlənin zəhmli baxışlarına tuş gəlirlər. "Gedin işinizlə məşğul olun, bizə belə göstəriş verilib." Sadəcə fəhlənin kömürləmiş sifəti deyil, binanın hər tərəfindən yekə-yekə elektrik gözləri dombalıb baxır işin gedişinə. Təkcə baxmır, həm də ötürür olub bitənləri binanın məxməri otağında məxməri masanın üstündə qoyulmuş bilgisayara və oradan armudu stəkanda buğlama məxməri çayı qurtumlayan rəhbərin baxışlarına. Artıq bu kitabların qətlinə fərman verilib. Bu neçənci daşıma idi, neçənci qətliam idi. Maşın-maşın... Nə varlı imiş bu bəxtəvər məktəbin bəxtəvər kitabxanası kitab sarıdan. Daşındıqca bitib-tükənmir.

Yenə qeyri-müəyyən bir məkanda, qeyri-müəyyən bir zamanda bir yekə məktəbin foyesində qara lentlər sərgilənir iclas salonunda. Qaboyun həzin səsi matəm havası əsdirir. Bu hava ildə bir dəfə efirlərdən şəhidlər xiyabanlarına qədər dalğa-dalğa yayılır. Metroları, qəbirləri süsləyən qərənfil bacılarının halına inləyib sızıldayır. Bu qərənfillər dünyanın heç bir yerində heç kimin əlində bu qədər bəzək elementi ola bilməz. Kim nə deyir desin, bu millətin qərənfildən düzəldilən xalılarının çeşniləri dünyanın heç yerində yoxdur. "...Baxıb məzarımda bitən güllərə, Söykəyib üzümü qərənfillərə, Dəli bir ağlamaq keçir könlümdən". (Alı Mustafayev ölümündən əvvəl Şəhidlər xiyabanını ziyarət edərkən yazmışdı bu şeiri.) Qeyri-adi istedadları üzə çıxır qərənfili ilmələyənlərin belə günlərdə.

Tabut gətirilir. İclas salonunun səhnəsinə qoyulur. Tabutu və altındakı kürsünü qara pərdə, pərdəni də qərənfillər süsləyir. Salonda oturmağa yer yox. Ayaq üstə duranlar da donmuş vəziyyətdə. Nikbinlik gömülüb yeddi arşınlıq quyunun dibinə. Üzlərdə dərin bir hüzn, matəm havası. Qaboy öz işində. Yorulanda yerini kamana verir.

Orta sırada birinin gözündən yaş süzülür. "Könlündən keçən dəli bir ağlamaq" gözlərində çağlayır. Səssizsəmirsiz. Hönkürmək olmaz. Belə məclislərin rəsmi ədəb normalarına uyğun deyil. Beynində qaboyun səsinə inşaat arabasına tullanan kitabların şappıltısı akkort tutur. "Salman Mümtazın də evini beləcə daşıdılar. Ev bəlkə də elə kitabxanadan ibarət imiş. Daşıdıqca qurtarmırdı. Əvvəl özünə şələyib daşıgtdılar, sonra maşınlara birbaş NKVD padvallarına, oradan da Matenadarana. (İrəvanın əlyazmalar arxivi) Salman Mümtaz sandıq-sandıq qızılını xərcləyib yığmışdı bu kitabları, əlyazmaları. Dünyanı dolaşmışdı bu kitablar üçün. Hələ həyətdəki tumsatan qadın. "Bu şair yaman varlıymış deyəsən. Hey daşıyırlar tükənmir. Bir mən də kedim, görüm, əlimə nə keçir." Arxadan pəncərə şüşəsini sındırıb içəri düşür və döşəmə boyu səpələnən kağız-kuğuzdan başqa əlinə bir şey keçmir. "Buna da şükür, tum büküb sataram." Ruhun şad olsun, Salman Mümtaz, ey böyük ustad! Belə bir ömür siz kimi dahilərin, millət fədailərinin qədəridir."

Qaboy smenini kamana verir. Vida mərasını başlayır. Keçən əsrin iyirminci illərindən bu yana qəlibləşmiş nitqlər. "İlk kitabına mən rəy vedim, oradan tanış olduq...", "Əvəzsiz insan idi, az müddət bir yerdə işləsək də...". Titulları sadalanır. Hər kəs bir-birini təkrar edir. Rəngarəng etmək üçün çıxışların gözünə bir tələbə də qatılır. "Sənə layiq səmimi sözlər bəlkə də tələbənin bu çıxışı idi, ustad!" Yenə gözündən yaş süzülür. Bu boyda zalda göz yaşı axıdan, bəlkə də, təkcə o idi. "Bağışla, ustad. Sənə verəcəyim bir əmanət var idi, çatdıra bilmədim. Burda hər kəs sənin barəndə hamının bildiklərini üyüdüb tökür. Amma heç kəs demir ki, sən kişilərin kişisiydin. Sən kimsənin bilmədiyi ruh adamı idin. İliyinə qədər müəllim idin. Səninlə bir yazı hazırlayırdıq dərgi üçün. (O dərginin də ikicə sayı çıxdı. Beşiyində boğdular) Sən müsahibə verirdin. Bura gəlişinə səbəb olan adamın adını hörmətlə çəkirdin. O əmanəti sənə çatdıra bilsəydim. Orada o adamın da kimliyini bilərdin, bu məktəbin də gizlinlərini. Sən dedin ki, mən bu qədərdi burada işləyirəm, bu adamları on ildən artıqdı tanıyıram, amma bunların fəlsəfəsini çözə bilmədim. Kaş əvvəldən bunlarla bir yerdə olsaydım. Onlar elm nuru, təhsil işığı yayan süvarilər idi. Yayılmışdılar dünyanın hər yerinə. "Təhsilə bir yenilik gətirdilər. Bunu bir nümunə kimi qoruyaruq" deyirdi ölkənin o vaxtkı rəhbəri. Bunun yenilik olduğunu sən də bilirdin, bilməsən belə ürəkdən bağlanmazdın bunlara. Amma fəlsəfələrini çözə bilmədiyi etiraf edirdin. Çözə bilmirdim deyirdin, amma çözə bilənlərdən daha çox xidmət elədin, daha çox ürək yandırdın...

Bir il bundan əvvəl elə bu zalda Sənin 80 illiyin təntənəli (o dövrlərdən qalan necə də gurultulu ifadədir, ustad. 37-də də, 67-də də, lap 97-də də eyni gurultulu pafosunu saxladı) şəkildə qeyd olunurdu. O vaxt çıxış edənlərdən səni daha çox sevən və danışmaq istəyən vardı. Amma danışa bilmədi. Protokola düşə bilməmişdi. Gələcəyindən sənin xəbərin olsaydı bəlkə də söz verərdilər, sən desəydin səni qırmazdılar. O da səni kimi təvazö ilə gəldi. Gəldiyindən ancaq tədbir bitəndən, böyüklərin yanında xas dairədə "çay" mərhələsində xəbər tutdun. Çox duyğulanmışdı...

Sənin müsahibəni alanda da onu yadına saldım. Tələbə yoldaşın idi. Onda da sən çox duyğulandın. Əsgər müəllimi deyirəm.

Hə elə bir il bundan əvvəl də, o bir ildən bir il əvvəl bu işıq süvarilərinin "fəlsəfələrindən" xəbərsiz olanlar onları gəldikləri yerə göndərməyə başlayanda da yeganə sən nəyin nə olduğunu deməyə cəsarət tapdın. Dedin sözünü "Bunları nümunə kimi qoyuruq" deyənin xələflərinə, varislərinə.

Kitabları da getməyə başladı dallarınca. İndi də sənin tabutundan bir az əvvəl vızıldadıb şappıldadırdılar inşaat arabasından yuk maşınının kuzasına. Hara daşımışdılar? İndi hara apracaqlar?

Salman Mümtazın kitablarının əvvəlini Matenadarana göndərdilər, sonunu tumsatan qamarladı...

Adamın gözündan yaş sel kimi axır. Burunun suyu da göz yaşına qarışanda "ayılır", əlini ciblərinə atır. Yaylıq yoxdur. "Yaylıqlı günlərimiz çoox geridə qaldı. İndi salfetkaya keçdik. Ya da məndil, yaşı, və ya qurusu. Onu da gəzdirməyə alışmadıq." Yanındakına pıçıldayır. Aldığı "quru məndillə" əvvəl burnunun, sonra gözünün yaşını silir. İndi göz yaşları içinə axır. "Onu kimsə görməz. Yaylığa da ehtiyacı yox.". Yandırılan kitablar. "Cəllad, sənin yandırdığın kitablar..." Səməd Vurğun da qurd ürəyi yeyibmiş vallah. Nolsun sənə "Qara şair" deyib halını soruşurdu aşağıdakı cəlladdan yuxaridakı cəllad. Dərini boğazından çıxardardı vallah." Yenə kövrəlir. Göz yaşını zahirlikdən gizləyib batiniliyə yönəldir.

Bunlar gəldiyi yerə göndərilməyə başlayanda da yalnız sən "Bunlarda hiylə yox, qiybət yox. Burda kimsə kimsənin torbasını tikməz. Başkandan ayaqkana kimi aralarında ciddi bir səmimiyyət var. Hər kəsə sevgi və saygıyla yanaşırdılar. Bunlar yüksək təhsillə bərabər yüksək əxlaq da verirdilər." deyirdin. Bunları sadəcə təhvil-təslim mərasimlərində məktəbin iclas salonundan demirdin, həm də müsahibə verirdin. Ekranlardan, efirlərdən bütün millətə səslənirdin ki, görüb, dinləyib Məşədi İbad demiş "zad eləsinlər". Məktəbin ağsaqqalı-qarasaqqalı susanda sən deyirdin. Hətta ən imtiyazlı, yaşca hamıdan böyük bir hörmətli professor özünü məktəbin "ən cavan kadrı" adlandıraraq "gedənə yaxşı yol, gələnə xoşgəldin"ə bənzər bir şeylər dedi. Oradan o tərəfə keçə bilmədi. Qalanlar susdular. İllərlə burada barınan, o vaxtı gələnlər tərəfindən həyatda görmədikləri dəyərləri, hörməti görən ölkənin nüfuzlu ağsaqqal elm xadimləri də susmağa üstünlük verdilər. Müşahidə etdilər sadəcə "Titanik"i, "Paytaht" Sultan Əbdülhəmidin çöküşünü seyr edənlər kimi. Bir gəmi batırılırdı, bir mogikon əridilib buxarlandırılırdı. Sən deyirdin deməlisini.

O ilk dəfə səni bura dəvət edən buranın rəhbərlərindən biri olmuş professor bilirdin, kimdir? Bir az əvvəl dedim axı, o əmanəti verə bilsəydim, bilərdin. İndi o əmanət məndə də yoxdu. Buxarlandı buradakı kitablar, başqa nəsnələr kimi. Amma içindəki içimdədir. Bilirsən nə yazılmışdı o kitabda. O kitabda səni bura işə dəvət edən o adam haqqında da yazılmışdı. Yazılmışdı ki, onlar qədim türk diyarlarına gedəcəkdilər. Ora təhsil nuru aparacaqdılar. Hədəfdə taciklər də vardı. Onlara dilmanclıq edən biri də vardı. Həmin o dilmanc sonradan bu məktəbin rəhbərlərindən biri oldu və səni işə dəvət elədi. Əvvəl Badikubədə, Məmməd Elli Demiş, Batıqobada duraqladılar. Qış günü idi. Başlarında duranın şəkəri varmış. İsinmək üçün ayaqlarını elektrik plitəsinə yaxınlaşdırmış və yandığını hiss etməmişdi. Sonra illərlə bu yanıq sağalmadı, amma o adam yerində durmadı. Yaşı da yetmişi keçmişdi bu ağsaqqal nurani adamın. O əslində gəldiyi ölkənin ən imkanlı iş adamı idi. Amma bütün varını və həyatının bu yolda xərclədi və getdiyi yerlərdə okul açdı, universitet açdı. Özü ilə işıq süvariləri apardı. Onlar da özləri ilə gətirdikləri sevgi, barış missiyasını yüksək təhsillə, yüksək mənəvi əxlaqi dəyərlərlə ötürdülər başqalarına. Sudan yanana su oldular, xəstəyə dərman, dərdliyə ümid qaynağı. Kimdi bu ağsaçlı, ağsaqqal nurani qoca! Qəbri nurla dolsun, ruhu şad olsun. Dünyasını çoxdan dəyişib. İsa Hüseynovun "Yanar ürək" romanının tarixçi alim qəhrəmanı 800 cildlik vərəsədən qalan parçaları tədqiq edərkən bir söz işlədir. "Mirqəzəb məni güllələsə də bunu yazacam." Bu yazacağı isə belə bir cümlə idi: "Biz qalımda qalası olduq." Bunu yazanlar Nuh tufanından sonra Altay dağlarında quruya enən SUƏRLƏR imiş. İndi mənə də neyləsələr deyəcəm, bu adamın adını. Elə bir hala gəlinib ki, bunların adı az qala Həsən Sabbahlardan, Ocalanlardan, Binladenlərdən daha qorxulu səslənir sanki. Hə. Bu mübarəyə, getdiyi hər yerdə ürəklərdə taxt qurmuş bu nur topu kimi adama Hacı Ata deyirdilər.

O Hacı Ata ki Turqut Özal onun haqqında "beş dənə belə kadrım olsaydı. Dünyanı barmağıma dolayardım" demişdi. Bir gün bu Hacı Ata və yanındakı işıq suvariləri Özbəkistanda inşası bitmək üzrə olan okula lazım olan və Vətəndən göndərilən ləvazimatları almağa gedirlər aeroporta. Mal boşaldılır. Maşınlara yüklənir. O vaxt da oralarda 5-10 dollara görə adam başı kəsərdilər, kimsə də hesab sormazdı. Belə bir vaxt idi. Elə yola düşmək istərkən bir dəstə silahlı maşınları dövrələyir. Kalaşnikovların lülələri tuşlanır 5-3 müəllim, bir də Hacı Atanın üstünə. "Brosaytes veşi, i ubiraytes, yesli jit xotite!". (buraxın şeyləri və rədd olun əgər yaşamaq istəyirsinizsə) Hacı Ata ağır addımlarla əmr verən banda başçısının üstünə doğru gəlir. 5-6 addım qalanda "Vur, nə durmusan, vur! Bunlar öyrətmən, uçitel! Okul, məktəb, uşkol. Eroin net, narkotik net! Dolar net!

*(Davamı 14-cü səhifədə)*

*(Əvvəli 13-cü səhifədə)*

Sizin balalarınız üçün okul açırıq ki, oxuyab sizin kimi başkəsən olmasınlar, onda vur, apar bu partaları, daskaları, kitab-dəftəri də, ye, sat, pul qazan, onu da ver içkiyə, ye-iç kef eləə!" Hacı Atanın sinəsi avtomatın lüləsinə toxunanda dayanır. Gözündən sel kimi axan göz yaşlarına bir də hönkürtü qarışır. "bey, strelyay, geroy naroda!" (vur, güllələ, xalq qəhrəmanı) Başını qaldıǧıb banda başçısı ilə göz-gözə gəlir. Əlində avtomatı titrəyən bu uzunboylu orta yaş heybətli qıyıqgözün də gözündən yaş axır. Onun da hönkürtüsü qarışır Hacı Atanın hönkürtüsünə. Əlindəki avtomatı kənara tullayıb qucaqlayır Hacı Atanı. Sarılır ona. Bir-birinə illərdi həsrət qalan ata-bala kimi sarılırlar. Ətrafdakılar donub qalır. Bir xeyli sonra bir az toxdayırlar. "Komutan" özünü ələ alıb bir də baxır Hacı Atanın üzünə, bir də qucaqlayır onu. Sinəsinə sıxır. Sonra əlinin dalı ilə göz yaşlarını silərək adamlarına dönür...

Zalda sakitlikdir. Matəm nitqi bir-birini əvəz edir. Adamın göz yaşları yenidən çağlayır. Hönkürməkdən özünü güclə saxlayır. "Hacı Ata məktəbə gələn bu əşyaları necə gətirtmişdi sərnişin təyyarəsi ilə? Kimləri qatmamışdı bu işə! Gələn malların alınmasında kimlərin əməyi yox idi. İş adamlarının, vəzifə sahiblərinin, tələbələrin, əsnafların yardımı, nişanlı qız oğlanın barmaqlarındakı üzüklər, gəlinin qulağındakı sırğalar, hətta 12 yaşlı məktəblinin öz əynindəki kurtkası hədiyyə olunmuş, satılıb əvəzində məktəb ləvazımatı alınmış və göndərilmişdi uzaq bir diyardakı yeni okul üçün. Bura gələn müəllimlər də necə deyərlər "bığ yerləri yenicə tərləyən" ana quzuları idi. Amma çox yaşlıdan, çox alimdən, çox təcrübəlidən daha çox nail olurdular. Çünki ürəklərində qarşılqsız sevgidən, təmənnasız elm və təhsil verməkdən başqa bir istək yox idi. Dünya malına, şan-şöhrətə, var-dövlətə də qapalı idi gözləri. Son dövrün könüllərə dastan yazan fədailəri. Sən bunları bilmədin, ustad, ruhun şad olsun. Bağışla ki, o kitabı sağlığında sənə verə bilmədim. Oxusaydın bunların hamısını, bir az da artığını bilərdin. Sən bunlardan xəbərsiz getdin. Bunların, hətta indi zalında uzandığın bu salonun, bu məktəbin nələrə başa gəldiyini təsəvvür eləmək belə mümkün deyil. Bilinən sadəcə odur ki, bunlarda haram yoxdu, rüşvət yoxdu, mənimsəmə yoxdu, dövlətin parası yoxdu. Bunlar sadə insanların alın tərunin və hətta çoxlarının göz yaşının, xeyir duasının əsəri idi. Sevginin əsəri idi. Burada şagird və tələbələr müəllimdən qorxub çəkinməzdilər. Valideynlərdən daha çox ərk edər, sirlərini açardılar onlara. Çünki sevgi görürdülər, şəfqət görürdülər. Bu fikirləri sən də az səsləndirmədin sağlığında və təəssüf ki, həmyaşların içində sadəcə sən səsləndirməyə cürət etdin. Bu gün bu işi görənlərin köklərinə daş atanların,

# ELEGİYA

## *Bir matəm mərasimindəki çıxışlara yamaq və ya virtual göndərmə*

kitablarını qətl edənlərin bu sevgidən anladıqları bir şey yox ustad! Şəfqətin nə olduğunu idrak edə bilməzlər. O təfəkkür qaldı 200 ilin arxalarında."

...Komutan geri çəkildi və Hacı Atadan üzr istəyərək adamlarına özbək dilində başa saldı ki, bu adamlar hara gedirlərsə əşyalarla birgə sağ-salamat aparıb çatdırsınlar. Ağsaqqalın qoluna girib hörmətlə öz maşınına dəvət elədi "Bunlar qorumamız altındadırlar, bunlara toxunmaq istəyən qarşılarında məni bulur!" İki gün sonra həmin banda başçısı uşaqlarını gətirib məktəbə yazdırır. Maddi yardım edir, adamları ilə birgə inşaatında belə çalışır...

Sonra oralarda nələr oldu ustad, onu bilmirəm, amma burada bu gün təkcə kitabları deyil, pedaqoji fakültəni də qətl edirlər ustad. Rəhbərliyin filologiyanı görən gözü yoxdur. Bunu elm saymırlar. Texnikləşdirmək istəyirlər. Halbuki bu ölkədə bu gün hamıdan çox müəllimə ehtiyac var. Buradan yetişən müəllimə. Özün demişkən, "yaxşı müəllimə". Səndən müsahibə alarkən dedin ki, məni əvvəl bura saat hesabı götürdülər, sonra yarım ştata. Daha sonra tam ştata götürmək istəyəndə əvvəlki iş yerlərindən səni buraxmaq istəmədilər. Onda məktəbun rəhbəri onlardan və bu ölkənin səlahiyyətli nümayəndələrindən acizanə xahiş edir ki, biz burada pedaqoji fakültənin bütün ixtisaslar üzrə bölmələrini açmaq istəyirik. Bizə pedaqoq lazımdır, özü də yaxşı pedaqoq. Əjdər müəllim elə bizim axtardığımız pedaqoqdur. Sonra da dedin ki, məni bura Ömər bəy dəvət etdi, bu yerimi isə Əhməd bəy təsdiq etdi. Bu Ömər bəy o vaxtlar Hacı Ataya dilmanclıq edən, sonra bu məktəbin rəhbəri olan prof. dr. idi. Fransıscanı, farscanı öz dili kimi bilirdi. Ərəb, rus dillərinə də bələd idi. İndi onlar haralardadı, bilmirəm, pələsəng elədilər, vətənlərindən didərgin saldılar. İndi səni son mənzilə yola salırıq. Tabutuna girməyə belə imkanım yoxdur. Bizlər belə yerlərə yaxın buraxılmarıq. Dahi Füzulinin 500 illik yubileyində də iştirak edənlər, "dəvətnamə" alanlar əsasən o vaxtın raykom katibləri, prokurorlar, və s. kimi Füzulini "dərindən bilən" möhtərəmlər idi. Bir ədəbiyyat müəlliminin bu tədbirə qatılmağa haqqı olsa da, şansı yox idi. Sənlə bağlı ürəyimdə iki nisgil qaldı, ustad! O kitabı sənə çatdıra bilmədim. Bunların fəlsəfəsinin içində gizləndiyi kitabı, bir də yubileyində eşidib gələn, çıxış üçün söz ala bilməyən tələbə yoldaşın Əsgər müəllimə xəbər edə bimədim. Hadisələr elə qəfil, sürətli oldu ki, vaxt olmadı. Əsgər müəllim çox istərdi, bu gün burada olsun. Məndən inciməyə haqqı var. Ruhun şad olsun, ustad! Bir gün biz də və... də sının getdiyin yola üz tutacaq, o yolu gedəcəyik. Burada hərənin bir yolu var, amma sənin indi gedəcəyin yol hamı üçün birdi, ustad. Hamı üçün birdi, amma asılacaqları ayaqlar fərqli.



Ruhun şad olsun!

***Sədrəddin HÜSEYN***